# Avadanlıq və cihazların istifadəsi zamanı necə enerjiyə qənaət etmək olar?



## Soyuducudan istifadə zamanı enerjiyə qənaət



- Avadanlıq **günəş şüasından uzaq** yerə  yerləşdirilməlidir.
- Sağ, sol və arxa hissəsində hava alması üçün **boşluq saxlanılmalıdır**.
- Qapılar lazımsız yerə **açılmamalı** və uzun müddət **açıq qalmamalıdır**.
- İsti yemək birbaşa soyuducuya **yerləşdirilməməlidir**.
- Məhsullar soyuducuya **səliqəli** yerləşdirilməlidir.
- Donmuş qidaların **soyuducu dolabına yerləşdirərək əriməsi** məqsədəuyğundur.



Evdən uzun müddətli uzaqlaşdıqda, soyuducunun **tətil rejimində** (olduğu təqdirdə) saxlanılması tövsiyə olunur.

## Paltaryuyan və qabyuyandan istifadə zamanı enerjiyə qənaət



- Avadanlıqda **eko rejimin** (olduğu təqdirdə)  **daimi istifadə edilməsi** tövsiyə olunur.
- Avadanlığın **maksimum yüklənildiyi** zaman istifadəsi məqsədəuyğundur.
- Avadanlıq maksimum tutumdan çox **yüklənilməməlidir**.
- Avadanlığın istifadəsindən sonra elektrik qidalandırıcısı elektrik yuvasından **çıxarılmalıdır**.

Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən hazırlanmışdır.

# Avadanlıq və cihazların istifadəsi zamanı necə **enerjiyə qənaət** etmək olar?



## Ocaq və sobaların istifadəsi zamanı enerjiyə qənaət



**Ocağın gözü** bişirilən/qızdırılan yeməyin həcminə görə istifadə edilməlidir.

Ehtiyac olmadığı təqdirdə **ön isitmədən** qaçınılmalıdır.

Soba işlək vəziyyətdə olduqda, lazımsız yerə **qapısı açılmamalıdır.**

Yeməyin hazır olmasına **dəqiqələr qaldığı zaman** soba söndürülə bilər.

## Kondisionerdən istifadə zamanı enerjiyə qənaət



Otağın sahəsinə görə **BTU göstəricisi təyin edilməli** və həmin **göstəriciyə uyğun** kondisioner alınmalıdır.

İlin isti və soyuq dövrünə əsasən **tövsiyə olunan temperaturlarda** istifadə edilməlidir.

Avadanlığın mütəmadi olaraq **baxımı və filter təmizliyi** həyata keçirilməlidir.



## Digər ev alətlərindən istifadə zamanı enerjiyə qənaət

Ütü dərəcəsi **paltara görə** müəyyən edilməlidir.

Otaqların işıqlandırılması üçün **LED** lampalardan istifadə edilməlidir.

**Ehtiyac duyulduğu qədər** su qızdırılmalıdır.

Avadanlığın istifadəsindən sonra elektrik qidalandırıcısı elektrik yuvasından **çıxarılmalıdır**.

Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən hazırlanmışdır.